# Alimlərin qarşısında lovğalanmaq, səfehlərlə mübahisə etmək

Cabir bin Abdullahdan (Allah onların hər ikisindən razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Alimlərin qarşısında lovğalanmaq, səfehlərlə mübahisə etmək, məclislərdə seçilmək üçün elm öyrənməyin. Kim belə edərsə, o oddadır, oddadır".
[Səhih] [İbnu Məcə rəvayət etdi]

Burada Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) elm tələbəsini alimlərin iştirak etdiyi məclislərdə özü ilə fəxr edib öyünməsindən, "mən də sizin kimi elmə sahibəm" düşüncəsini izhar etməkdən, səfehlərlə, dar düşüncəli insanlarla mübahisə etməkdən, məclislərdə öndə olmaq və digərlərindən önə çıxmaq məqsədilə elm öyrənilməsindən çəkindirmişdir. Kim bunu edərsə, riyakarlığına görə və elm tələbində ixlaslı olmadığı üçün Cəhənnəmə girməyə layiq olar.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee